# Azərbaycan özəl sektorun mərkəzi rol oynayacağı yeni inkişaf modeli axtarışındadır

## Dövlətimizin başçısı AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncağında bu fikri xüsusi qeyd etmişdir ki, beynəlxalq maliyyə qurumları da gələcək illərdə ən yüksək iqtisadi templərlə inkişaf edən ölkənin Azərbaycan olduğunu bildirirlər

Dövlətimizin başçısı İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncağında ölkəmizin uğurları fonunda bu əminliyi böyük inam və qətiyyətlə bildirmişdir ki, iqtisadi inkişaf dinamikası davam edəcək: "Çünki bunun təməlində həm artıq görülmüş işlər, infrastruktur layihələri, gözəl investisiya iqlimi dayanır, eyni zamanda dünyanın mötəbər iqtisadi qurumları da fəaliyyətimizi yüksək qiymətləndirirlər. Həm Dünya Bankı, həm Beynəlxalq Valyuta Fondu hesab edir ki, bu bölgədə - Şərqi Avropada gələcək illərdə ən yüksək iqtisadi templərlə inkişaf edən ölkə Azərbaycan olacaqdır." Bu reallıq da diqqətə çatdırılmışdır ki, uğurlara əsas yaradan düşünülmüş siyasət və iqtisadi islahatlardır. İqtisadi müstəqillik dövlət müstəqilliyinin əsasıdır.



Təbii ki, istər sosial-iqtisadi göstəricilərə, istərsə də beynəlxalq maliyyə qurumlarının hesabatlarına və proqnozlarına diqqət yetirsək, bu gün Azərbaycanın inkişafın hansı səviyyəsində olduğunu aydın görərik. Qeyd olunan yığıncaqda Prezident İlham Əliyev ayrı-ayrı sahələrdə əldə olunan uğurlardan geniş bəhs edərək, bu fikri dönə-dönə qeyd etmişdir ki, iqtisadiyyatın elmi əsaslara söykənməsi davamlı inkişafa geniş yol açır. Məhz ulu öndər Heydər Əliyev dünya təcrübəsinə istinadən bildirmişdir ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Ümummilli Liderin iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməsi bugünkü reallıqlarımız üçün əsas rolunu oynayıb. Belə ki, neft gəlirlərinin səmərəli istifadəsini təmin etmək, şəffaflıq prinsipini qorumaq üçün dahi şəxsiyyət Heydər Əliyevin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondunun aktivləri hesabına bu gün ölkəmizin hərtərəfli inkişafını sürətləndirən sosial-iqtisadi layihələr həyata keçirilir. Son 12 ildə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımlar öz müsbət nəticəsini verir. Cənab İlham Əliyev qeyri-neft sektorunun inkişafını neft siyasətinin məntiqi davamı kimi dəyərləndirərək, bu istiqamətdə biri-birindən əhəmiyyətli addımlar atır. "Bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranı, eyni zamanda, bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir etməmişdir. Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidar arasındakı birlikdir və bizim bütün proqramlarımızın uğurlu icrasıdır. Azərbaycanın apardığı xarici və daxili siyasət xalq tərəfindən dəstəklənir və əminəm ki, bu il görüləcək işlər nəticəsində Azərbaycan daha da güclənəcək" söyləyən dövlətimizin başçısı İlham Əliyev bu reallığı da hər zaman önə çəkir ki, daxili resurslardan maksimum dərəcədə istifadə etməyə və heç kimdən asılı olmamağa çalışırıq: "İstəyirik ki, öz yolumuzla gedək, xalqımız daha yaxşı yaşasın, dövlətimiz daha da güclənsin."

Qeyd etdiyimiz kimi, beynəlxalq maliyyə qurumlarının proqnozları da Azərbaycanın uğurlarına söykənir. Məlum olduğu kimi, Beynəlxalq Valyuta Fondu "Dünya İqtisadi Proqnozları" adlı hesabatını açıqlayıb. Qurum Azərbaycan iqtisadiyyatının cari ildə 4 faiz, gələn il isə 2,5 faiz artacağını proqnozlaşdırır. Sözsüz ki, Azərbaycanın iqtisadi artım proqnozunun yüksəldilməsi uğurlu sosial-iqtisadi islahatlara, bu günün reallıqları əsasında yeni-yeni hədəflərə əsaslanır. Məhz bu uğurların əsasında "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası təsdiqlənib. Konsepsiyanın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır. 2020-ci ildə Azərbaycan iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətqabiliyyətli ölkə olacaq. Konsepsiyanın əhatə etdiyi dövr ərzində qeyri-neft sektoru üzrə ÜDM-in orta illik real artım tempinin 7 faizdən yüksək olması nəzərdə tutulur. Hazırkı mərhələdə qarşıda duran əsas vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirməkdir. Dövlətimizin başçısı İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda bildirmişdir: "Ümumiyyətlə, son illər ərzində bizim siyasətimiz ondan ibarət idi ki, neft-qaz amilindən asılılığımızı maksimum dərəcədə aşağı salaq, ölkə iqtisadiyyatının şaxələndirilməsinə nail olaq, bölgələrdə yeni iş yerlərinin, sənaye müəssisələrinin yaradılması məsələlərini həll edək. Hələ 2004-cü ildə birinci regional inkişaf proqramının qəbulu məhz bu məqsədi güdürdü. Şadam ki, bu proqramlar artıq ardıcıllıqla icra edilir və bölgələrin siması dəyişilib. Yeni müəssisələr, sosial obyektlər, infrastruktur layihələri ölkəmizi gücləndirir və neft-qaz amilindən asılılığımızı böyük dərəcədə azaldır. Əgər ümumi daxili məhsulumuzun strukturuna baxsaq görərik ki, hazırda neft-qaz sektoru burada təqribən 30 faiz təşkil edir, gələcəkdə bu rəqəm daha da aşağı düşməlidir. Ancaq bununla bərabər, bu gün biz iqtisadiyyatın yeni modeli haqqında düşünürük."

Təkcə cari ilin doqquz ayının sosial-iqtisadi göstəricilərinə diqqət yetirək. İqtisadiyyat 3,7 faiz, qeyri-neft sektoru 6 faiz, sənaye istehsalı 2,1 faiz, kənd təsərrüfatı 6,7 faiz artıb. Əhalinin pul gəlirləri 5,8 faiz artıb. Ölkə iqtisadiyyatına 16 milyard dollara investisiya qoyulub. 87 min yeni iş yeri yaradılıb ki, bunun 67 mini daimidir. Ölkə Prezidentinin qeyd etdiyi kimi, regionlarda yaradılan iş yerləri ölkə iqtisadiyyatının çoxşaxəli inkişafına xidmət göstərir. Bir əsas məqam da vurğulanır ki, inkişafın davamlılığını təmin etmək üçün kadr hazırlığının iqtisadi inkişafın səviyyəsinə uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə mühüm tədbirlərin həyata keçirilməsində də ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadənin rolu inkaredilməzdir. Hazırda aktivlərinin həcmi 36 milyard dollardan artıq olan Dövlət Neft Fondunun maliyyələşdirdiyi əsas istiqamətlərdən biri məhz gənclərin xarici ölkələrdə təhsil almalarıdır. Daim bu fikir vurğulanır ki, intellektual səviyyənin aşağı olduğu ölkə dayanıqlı inkişafa nail ola bilməz. XXI əsrin əsas çağırışlarından biri yeni texnologiyaların öyrənilməsi və tətbiqi, kadr hazırlığının iqtisadi tərəqqiyə uyğunlaşdırılmasıdır. Azərbaycanın bu sahədə atdığı addımlar dünya mətbuatında da geniş şərh olunur. Belə ki, "Novıye izvestiya" qəzetində Azərbaycanla bağlı dərc olunmuş materialda bildirilir: "XXI yüzillikdə Azərbaycanın ən birinci meyarı, onun strateji resursu, xırdalanmayan kapitalı insandır. Azərbaycan həqiqətən gələcəyə istiqamətlənib - istər ultramüasir binalar və mehmanxanalar, istər qabaqcıl informasiya-kommunikasiya texnologiyaları, istərsə də bir neçə dil bilən gənc uğurlu biznesmenlərin sayının artması hesabına."

Dövlətimizin başçısı İlham Əliyev hər bir çıxışında kadr hazırlığının aktuallığını önə çəkir, iqtisadiyyatın elmi əsaslara söykənməsinin davamlı inkişaf üçün əsas olduğunu bildirir: "Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir." Təhsilin, elmin və iqtisadiyyatın vəhdətliyinin yaradılması prioritet məsələ kimi qarşıya qoyulub. Hər bir inkişafın da əsasında dayanan iqtisadi tərəqqinin yeni texnologiyalarla zəncirvari bağlılığı inkaredilməzdir.

Beynəlxalq maliyyə qurumlarının hesabatlarında da Azərbaycanın hərtərəfli inkişafında kompleks tədbirlərin həyata keçirilməsi təqdir olunur, gələcəyə böyük inam əksini tapır. Dünya Bankının Azərbaycanla bağlı yeni hesabatına əsasən, son onillik ərzində Azərbaycan yoxsulluğun azaldılması və ümumi rifahın yüksəldilməsi istiqamətində inanılmaz irəliləyişə nail olub. Yoxsulluq səviyyəsi 2000-ci illərin əvvəllərindəki əhalinin təqribən 50 faizindən 2013-cü ildə 5 faizinə qədər azalıb və bu proses orta sinfin həmin dövr ərzində əhalinin 4 faizindən 29 faizinə qədər böyüməsi ilə müşayiət olunub. Beləliklə, orta təbəqənin xüsusi çəkisi bir neçə dəfə artıb və ifrat yoxsulluq demək olar ki, aradan qaldırılıb. Qeyd edilir ki, bu nailiyyətlər ildə orta hesabla 13 faiz təşkil etmiş iqtisadi artımla xarakterizə olunan müstəsna iqtisadi göstəricilər və dövlət xərclərinin təmin edilməsi üçün neft gəlirlərindən istifadə edilməsi sayəsində əldə olunub. Azərbaycan özəl sektorun mərkəzi rol oynayacağı yeni inkişaf modeli axtarışındadır.

Azərbaycanın əldə etdiyi iqtisadi uğurlar daha bir nüfuzlu beynəlxalq qurum tərəfindən də təsdiqlənib. Dünya İqtisadi Forumunun qlobal rəqabətlilik indeksinə görə sıraladığı 140 ölkə arasında Azərbaycan 40-cı yerdə qərarlaşıb. Rəqabət reytinqinin formalaşmasında və onun davamlı olaraq yaxşılaşmasında ölkədəki makroiqtisadi sabitlik çox mühüm rol oynayır. Artıq bir neçə ildir ki, Azərbaycan həmin reytinqin tərkibində makroiqtisadi sabitlik üzrə birinci onluqdadır. Onu da nəzərə almaq lazımdır ki, bu nailiyyətlər dünyada dərin iqtisadi və maliyyə böhranının davam etdiyi, xüsusən Avrasiya məkanında bu böhranın daha da ciddi formalar aldığı bir dövrdə əldə edilib.

İqtisadiyyatın aynası dövlət büdcəsidir. Son on iki ildə büdcə xərcləri 20 dəfədən çox artıb. Büdcəmiz investisiya və sosial yönümlüdür. 2003-cü ilin dövlət büdcəsinin cəmi 1,2 milyard dollar olduğunu yada salsaq, bu gün həmin rəqəmin 25 milyard dollardan çox olması onu göstərir ki, son on bir ildə bu istiqamətdə xeyli işlər görülüb. Büdcənin artımı infrastruktur layihələrinin icrasını, həmçinin sosial məsələlərin həllini daha da sürətləndirir.

Son illərdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də biri-birindən əhəmiyyətli addımlar atılmaqdadır. "Biz sosialyönümlü dövlətin yaradılması istiqamətində çox böyük uğurlara nail olmuşuq" söyləyən dövlətimizin başçısı bildirir ki, qarşıdakı illərdə də bütün işlərimiz sistemli şəkildə, proqramlar əsasında aparılacaq. Əsaslı iqtisadi islahatların aparılması güclü sosial siyasətlə tamamlanır. Bazar iqtisadiyyatı prinsiplərinə xüsusi önəm verilən ölkəmizdə aztəminatlı ailələrin sosial müdafiəsinin etibarlı təminatı üçün atılan addımlar insanların yaşayış tərzini daha da yaxşılaşdırır. Ünvanlı sosial yardım proqramı icra edilir. Sosial ədalət prinsipinə sadiqliyin göstəricisi olaraq əmək haqqı islahatları davamlı proses kimi daim diqqətdə saxlanılır. Dövlət Proqramlarının uğurlu icrasının nəticəsidir ki, ölkəmizdə işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. Prezident İlham Əliyev bir daha vurğulayır ki, sosial ədalət prinsipləri Azərbaycanda əsas rol oynayır, bazar iqtisadiyyatı prinsipləri inkişafımız üçün əsas alətdir. 24 illik müstəqillik dövründə ölkəmiz nəinki keçid mərhələsini başa vurub, həmçinin planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçərək, aparılan islahatlar neft-qaz amilindən iqtisadi inkişafın və vətəndaşların gələcək asılılığını maksimum dərəcədə azaltmışdır.

Ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadəsi, təşəbbüsçüsü olduğu layihələri gerçəkliyə çevirməsi iqtisadi və maliyyə imkanlarını artırır, nəinki bölgədə, dünya miqyasında güclü, qüdrətli dövlət kimi nüfuz qazandırır. Dövlətimizin başçısı bu reallığı da diqqətə çatdırır: "Azərbaycan tərəfindən irəli sürülmüş layihələrin heç biri iflasa uğramayıb. Hər biri gözəl nəticələrlə sonuclanıb." Bu uğuru şərtləndirən digər amil birliyin, həmrəyliyin mövcudluğudur. Vaxtilə çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərləri Azərbaycan, Türkiyə və Gürcüstan dövlətlərinin birgə səyləri əsasında reallığa çevrildi. Bu gün adı çəkilən layihələr nəinki iştirakçı, dünya dövlətlərinin davamlı iqtisadi inkişafının təmin olunmasında əsas rol oynayır. Bu fikir beynəlxalq maliyyə qurumlarının hesabatlarında da qeyd olunur ki, Azərbaycan BTC və BTƏ neft-qaz kəmərlərinin istifadəyə verilməsi ilə regional iqtisadi inkişafın aparıcı qüvvəsinə və dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Bu inam ifadə olunur ki, növbəti layihələrin uğurlu icrası Azərbaycanın bu rolunu daha da artıracaq. Artıq çoxtərəfli əməkdaşlığın inkişafına xidmət edən addım kimi dəyərləndirilən "Cənub" qaz dəhlizinin təməli qoyulub.

Əhəmiyyətinə görə BTC və BTƏ neft-qaz kəmərlərindən geri qalmayan, yaxın zamanlarda istifadəsi nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin gerçəkləşməsi istiqamətində atılan addımlar da Azərbaycan dövlətinin siyasi iradəsinin nəticəsidir. "Dəmir İpək yolu" adlandırılan bu layihə iştirakçı ölkələrin iqtisadiyyatının şaxələndirilməsinə və inkişafına təkan verəcək, eləcə də Avropa ilə Asiyanı bir-birinə daha da yaxınlaşdıracaq.

Uğurlarımıza qısa baxış bir daha dövlətimizin başçısı İlham Əliyevin bu fikirlərinin təsdiqidir ki, Azərbaycanın iqtisadi inkişafı uzunmüddətli və dayanıqlıdır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***